**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2710-0820.2024.2.80**

**Tofiq Nəcəfli**
*AMEA A.A.Bakixanov adına Tarix və Etnologiya İnstitutunun*
*"Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin müdiri, t.e.d., dos.*
*Azərbaycan*
*tofignajafli@gmail.com*

# I ŞAH ABBAS SƏFƏVİNİN SİYASİ PORTRETİ

***Açar sözlər:*** *I Şah Abbas, Azərbaycan Səfəvilər dövləti, qızılbaş tayfaları.*

***Giriş***

XVI əsrin son rübündə Azərbaycan Səfəvilər dövləti böyük əraziyə sahib olmaqla Şimali Qafqazdan Hind okeanına, Amudərya çayından Osmanlı imperiyasının sərhədlərinə qədər geniş bir coğrafiyada yerləşirdi. Şərqin və İslam dünyasının ən güclü dövlətlərindən biri olan Səfəvilər dövləti, I Şah Təhmasibin hakimiyyəti dövründə öz qüdrətini qoruyub saxlamışdı. Bu dövrdə Səfəvilər təkcə qonşu dövlətlərlə deyil, həm də Avropanın böyük dövlətləri ilə diplomatik və strateji əlaqələr qurmağa müvəffəq olmuşdular.

Lakin I Şah Təhmasibin vəfatından sonra onun varisləri bu əzəməti davam etdirə bilmədilər. Xüsusilə Şah Məhəmməd Xudabəndənin hakimiyyəti zamanı dövlət həm daxildə, həm də xaricdə ciddi itkilərlə üzləşdi. Daxildə qızılbaş əmirləri arasında hakimiyyət uğrunda mübarizə və ziddiyyətlər gücləndi, səltənət mühüm əraziləri itirdi, xaricdə isə əvvəlki əzəmətini itirdi, ciddi təhdidlərlə üzləşdi. Nəticədə Səfəvi dövləti tədricən zəifləməyə başladı. Əgər bu proses dayandırılmasaydı, dövlətin parçalanması qaçılmaz olardı [9, s. 3].

Bu tarixi dövr Səfəvilərin həm gücünün zirvəsini, həm də zəifləmə mərhələsini əks etdirən mühüm bir mərhələdir.

Məhz belə bir gərgin dövrdə siyasi səhnəyə gənc Abbas mirzə Səfəvi çıxdı. 16 yaşlı kifayət qədər gənc və hakimiyyət təcrübəsi olmayan Abbas mirzənin böyük səltənətə hökmdarlıq etməsi və onu qarşılaşdığı dərin böhrandan çaıxarması indi hamı üçün bəlli olan bir tarixi faktdır. I Şah Abbasın buna necə müvəffəq olması tarixçiləri düşündürən ən mühüm məsələlərdən biri olmuşdur.

I Şah Abbasın gənc yaşda hakimiyyətə gəlməsi və Səfəvilər dövlətini böhrandan çıxarmaqla böyük uğurlar əldə etməsi, tarixdə diqqət çəkən və müzakirə olunan hadisələrdən biridir. 16 yaşında taxta çıxan Abbas mirzə çox gənc və idarəçilik təcrübəsiz olsa da, qısa zamanda bir neçə vacib addımlarla dövlətini yenidən gücləndirməyi bacardı.

Onun uğurunun əsas səbəbləri arasında aşağıdakı amilləri qeyd etmək olar:

1. ***Siyasi islahatlar:*** I Şah Abbas dövlət idarəçiliyində bir sıra islahatlar həyata keçirərək, qızılbaş əyanlarının təsirini məhdudlaşdırdı və mərkəzi hakimiyyəti gücləndirdi. O, xüsusilə türkman tayfalarının hərbi qüvvələrinə alternativ olaraq müstəqil və sadiq qulamlardan (qullardan) ibarət yeni bir ordu yaratdı.
2. ***Hərbi strategiya:*** O, daxili sabitliyi təmin etdikdən sonra, Səfəvi ərazilərinə hücum edən osmanlılar və özbəklərlə mübarizədə üstünlük qazandı. Xüsusilə özbəklərlə müharibədə yeni yaradılmış nizami ordu sınaqdan uğurla çıxdı.
3. ***İqtisadi islahatlar:*** I Şah Abbas Səfəvi imperiyasının iqtisadiyyatını yenidən dirçəltmək üçün ticarət yollarını və ipək istehsalını inkişaf etdirdi. Paytaxtı Qəzvin şəhərindən İsfahana köçürməsi ilə yeni iqtisadi və mədəni mərkəz yaratdı.
4. ***Diplomatik siyasət:*** Osmanlı dövləti ilə uzun müddət davam edən müharibələrdən sonra, onunla müvəqqəti sülh bağladı və Avropa dövlətləri ilə diplomatik əlaqələr quraraq ticarəti genişləndirdi. Bu, həm dövlətin iqtisadi gücünü artırdı, həm də xarici müttəfiqlər qazandırdı.

I Şah Abbasın ağıllı idarəçilik qabiliyyəti və strateji baxışları sayəsində Səfəvi dövləti onun hakimiyyəti dövründə ən güclü dövrünü yaşadı. Bu, onu təkcə Səfəvi tarixi üçün deyil, ümumilikdə dünya tarixində böyük liderlərdən biri kimi önə çıxarır.

I Şah Abbasın dövlətçilik təfəkkürü, fəaliyyət strategiyasının və onun həyata keçirilməsi üçün lazım olan qüvvələrin düzgün müəyyənləşdirilməsi, qarşıda dayanan vəzifələrin icrasının düzgün təşkili, I Şah Abbası digər Səfəvi şahlarından fərqləndirən qabiliyyət və keyfiyyətdir. Məhz buna görə I Şah Abbas Səfəvi hökmdarları arasında ən çox tədqiqat mövzusuna çevrilmiş hökmdarlardan biridir. O, eyni zamanda həm də tarixi ən çox təhrif olunan hökmdarlardan biridir. Bununda səbəbləri vardır. I Şah Abbas kimi dünya əzəmətli bir hökmdarın türk olmasına bir sıra tədqiqatçılar qısqanclıqla yanaşırlar. Bu qısqanclıq isə onun tarixinin obyektiv öyrənilməsinə qərəzsiz yanaşılmasını mümkünsüz edir [9, s. 6-7]. Bu məqalədə məqsədimiz I Şah Abbasın siyasi portret çizkilərinə aydınlıq gətirmək, əzəmətli dövlət xadimini hakimiyyət zirvəsinə daşıyan və bütün çətinlikləri aşmaqda yardımçı olan məsələlərə və bu böyük şəxsiyyətinin xarakterik xüsusiyyətlərinə işıq salmaqdır.

***1. I Şah Abbas Səfəvi hakimiyyətdə: güclü iradə və cəsarətin təntənəsi***

Azərbaycan xalqının dövlətçilik, ictimai-siyasi fikir və qəhrəmanlıq tarixində müstəsna xidmətlərə malik olan, adı hər zaman qürurla və sonsuz bir maraqla xatırlanan I Şah Abbas Səfəvi 1571-ci il yanvarın 27-də Heratda Məhəmməd Xudabəndə və Xeyrənnisə Bəyimin ailəsində doğulmuşdu [4, s. 245]. Onun atası – I Şah Təhmasibin böyük oğlu Məhəmməd mirzə bu zaman Herat valisi idi. Hələ uşaq yaşlarında ikən Abbas mirzənin qarşılaşmış olduğu ciddi sınaqlardan biri ata-anasından ayrı düşməsi oldu. Bu hadisə 1573-cü ildə baş vermişdi və o zaman Abbas mirzə bir yaş altı aylığında idi. Həmin hadisənin baş verməsi həm Abbas mirzənin atası Məhəmməd mirzənin qəfildən xəstəliyə tutulması, həm də Məhəmməd irzə ilə lələsi Şahqulu sultan Ustaclı aarasnda ixtilafların başlaması ilə əlqələndirilir. Çiçək xəstəliyinə tutulan Məhəmməd mirzənin gözlərinin nurunu itirməsi I Şah Təhmasibə çatanda Məhəmməd mirzənin Şiraza göndərilməsinə qərar verildi [9, s. 18-19]. 1573-cü ildə Məhəmməd mirzə Şiraza vali təyin edildiyi üçün yaş yarımlıq Abbas mirzə Herat valisi təyin edilir və Şahqulu Sultan Ustaclı onun lələsi oldu. Uşaqlıq illərini Heratda keçirən Abbas mirzənin ata və anası Şirazda olduğu üçün onun tərbiyəsi ilə bilavasitə lələsi məşğul olurdu. II Şah İsmayıl tərəfindən Şahqulu Sultan Ustaclının qətl edilməsindən sonra Əliqulu xan Şamlı Abbas mirzənin lələsi təyin edildi [4, s. 244].

1577-ci ilin noyabrında II Şah İsmayıl Abbas mirzənin öldürülməsini tələb etsə də, Əliqulu xan Şamlının anası Xanağa xanımın tövsiyəsi ilə ramazan ayının başa çatmasını gözləmək lazım gəldi.“... Ramazan ayının 27-si axşamı qədr gecəsi olduğu üçün Əliqulu xanın möhtərəm anası onu bu mübarək gecədə məsum və günahsız bir seyidzadəni qətlə yetirməkdən çəkindirdi. O, bu işi səhəri günə saxladı. Lakin səhərisi gün cümə axşamı olduğuna görə həmin şərəfli axşamda da bu əmri icra etməyi təxirə salmağı lazım bildi və o gecədə də qətl baş vermədi. Həmin günlərdən sonra ortalığa bayram düşdü. [Əliqulu xan] istəmədi ki, eyş və şadlıq zamanı olan bayram günlərinə zəhər qatıb qanqaraçılıq yaratsın. Buna görə də bayram günlərinin sona çatmasını gözlədilər” [3, s. 488]. Lakin bu zaman II İsmayılın ölüm xəbəri gəldiyi üçün altı yaşlı şahzadə ölümdən xilas oldu.

1578-ci ildə atası Məhəmməd Xudabəndə şah seçilən zaman Abbas mirzə Herat valisi kimi vəzifəsini davam etdirdi. Zəif iradəli Şah Məhəmməd Xudabəndə dövründə (1578-1587) qızılbaş əmirləri arasında çəkişmələr güclənmiş, bundan istifadə edən qonşu dövlətlərin Səfəvi torpaqlarına hücumları intensiv hal almışdı. Hörmüz limanında möhkəmlənən portuqallar Səfəvi dövlətinin Bəsrə körfəzi və Hind okeanına birbaşa çıxışını bağlamışdılar. Şeybanilərin Xorasana aramsız hücumlarının qarşısını almaq çətinləşmişdi. Ən böyük təhlükəni isə Osmanlı dövləti yaratmışdı. Osmanlı ordusu və sultanın müttəfiqi olan Krım xanının qoşunları faktiki olaraq 1578-1585-ci illərdə Təbriz də daxil olmaqla Azərbaycanın əksər ərazilərini ələ keçirmişdilər.

Mərkəzi hakimiyyətin zəifləməsi, hərbi-iqtisadi gerilik müharibəni uğurla davam etdirməyə imkan vermirdi. Ayrı-ayrı qızılbaş əmirləri

arasındakı çəkişmələr onsuz da zəif olan ordunu daha da zəiflədirdi. Belə şəraitdə, 1581-ci ildə Xorasanda olan Ustaclı və Şamlı əmirləri Əliqulu xan Şamlını "xanlar xanı" seçərək Abbas mirzəni şah elan etdilər [4, s. 508-509; 10, s.85]. Lakin Məşhəd hakimi Mürşüdqulu xan Ustaclı ilə döyüş uğursuz oldu. Abbas mirzə Mürşüdqulu xan tərəfindən ələ keçirildiyi üçün Əliqulu xan kor-peşman Herata qayıtmalı oldu. Məhz Mürşüdqulu xan Ustaclı tərəfindən 1587-ci il oktyabrın 16-da Abbas mirzə Qəzvinin Cehelsütun sarayında Səfəvi taxt-tacına gətirildi [36, s. 862; 13, s. 14].

I Şah Abbasın taxta çıxması xüsusilə təlatümlü bir dövrdə baş verdi. Səfəvi dövlətinin çıxılmaz vəziyyətə düşməsinin əsas səbəblərindən biri hakimiyyət boşluğu yaratmış Şah Məhəmməd Xudabəndənin səmərəsiz və zəif rəhbərliyi, Səfəvi sülaləsinin, şah hakimiyyətinin və hərbi qüdrətinin zəiflədilməsi idi. Nüfuz və güc sahibi olan müxtəlif qızılbaş tayfaları arasında hakimiyyət uğrunda mübarizə aparan qruplaşmalar səltənətdə iğtişaşlara və dissonansa səbəb olmuşdu. Qızılbaşlar Səfəvi rejiminin əsas dayağı idi və ordunun onurğa sütununu təşkil edirdi. Siyasi və ictimai nifaq ordunun effektivliyini azaldıb Səfəvi dövlətini qərbdə osmanlıların, şərqdə isə özbəklərin böyük ərazi itkilərinə səbəb olan işğallarına qarşı müdafiəsiz vəziyyətə salmışdı [31, s. 61].

Qızılbaş əyanları ilə keçirilmiş ilk müşavirə göstərdi ki, dövləti məhv olmaq təhlükəsindən qurtarmaq üçün güclü ordu yaradılmalı, ölkədə sabitlik bərpa edilməlidir. Buna nail olmaq üçün islahatlar keçirilməli, iqtisadiyyatın tərəqqisinə xüsusi diqqət verilməlidir. I Şah Abbas (1587-1629) daxili problemləri həll etmək üçün vaxt qazanmaq məqsədilə osmanlılarla danışıqlara başladı. 1590-cı ildə tərəflər arasında imzalanan İstanbul sülhünün şərtləri Səfəvilər üçün çox ağır oldu: Azərbaycanın əksər torpaqları və Səfəvilərə məxsus olan Gürcüstan ərazisi Osmanlılara verildi [6, s. 265-266].

I Şah Abbas 1593-cü ildə ilk dəfə təntənəli şəkildə Ərdəbilə gəldi və Şeyx Səfiəddinin türbəsini ziyarət etdi [4, s. 838-839]. Qızılbaşların nəzarətində qalan Azərbaycan vilayətləri – (Zəncan, Xalxal, Ərdəbil, Qaracadağ, Qızılağac, Lənkəran, Qızılüzən və Kür çayları arasında yerləşən geniş ərazi) vahid Azərbaycan bəylərbəyiliyində birləşdirildi. Bu bəylərbəyiliyə Zülfüqar xan və Fərhad xan Qaramanlı qardaşları növbə ilə başçılıq etdilər. 1595-ci ilə qədər bəylərbəyiliyin qoşununun sayı 10 minə çatdırıldı və "*Azərbaycan qoşunu*" adlandı [4, s. 921, 922]. Beləliklə, I Şah Abbas Azərbaycanın bütövlüyünü, qızılbaşların himayəsindəki ərazidə onun "*vüqarlı adını qorudu, onun Səfəvilər dövlətinə mənsub olması fikrini sönməyə qoymadı*". İsgəndər bəy Münşi Zülfüqar xan Qaramanlını "Azərbaycanın müstəqil hakimi" kimi təqdim etmişdir [4, s. 830].

Səfəvi dövlətini düşmüş olduğu çətin vəziyyətdən qurtarmaq üçün I Şah Abbas üç mühüm vəzifəni həll etməli idi: İlk növbədə ölkədə daxili iğtişaşlara son qoyaraq nizam-intizam bərpa edilməli, maliyyə vəziyyətini yaxşılaşdıraraq güclü nizami ordu yaradılmalı və dövlətin itirilmiş əraziləri geri alınmalı idi.

I Şah Abbas dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq məqsədilə yüksək dövlət vəzifələrinə irəli çəkilən bütün şəxslərdən peşkəş adı ilə xəzinəyə müəyyən məbləğ verilməsini tələb etdi. Etimadüd-dövlə (baş vəzir) təyin olunmuş və sonralar böyük dövlət xadimi kimi şöhrət qazanmış Hatəm bəy Ordubadi dövlət mədaxili və məxaricinin siyahısını tərtib etməyə başladı. İsgəndər bəy Münşinin məlumatına görə, bu siyahı, onun xələfləri dövründə başa çatdırıldı və ali hakim dəftərxanasının qayda-qanununa çevrildi [5, s. 1929-1930].

Səfəvi şahlarının güc mənbələrindən biri qızılbaş sufilərinin onlara göstərdiyi şəksiz itaət və sədaqət idi. 1514-cü ildə Çaldıran döyüşündən sonra Qızılbaşların həyata keçirdikləri bir çox hərəkətlər onların liderlərinə artıq tanrı və ya yarımtanrı kimi baxmadıqlarını üzə çıxarsa da, erkən Səfəvi hərəkatını alovlandıran dinamik ideologiya tamamilə yox olmamışdı. Nəzəri cəhətdən şah onların mürşid-i kamili, onlar isə onun müridləri idi. I Şah Abbas təsəvvüf ideologiyasının bir hissəsi kimi ona bəslənən sədaqəti dərhal rədd edə bilməzdi. 1587-ci ilə qədər qızılbaşların bəlkə də kiçik bir hissəsi bu ideologiyaya ürəkdən inansalar belə, bunu edə bilməzdi. O zaman əsl sual I Abbasın hara üz tutacağı və təriqət maraqlarından üstün olan sədaqət üçün dəstək tapacağı idi. I Şah Abbas bu məsələni həll etmək üçün "üçüncü qüvvəyə", yəni I Şah Təhmasibin dövlət xidmətinə cəlb et-

diyi çərkəz, gürcü və "ermənilərə" müraciət etdi. Qulam adlanan bu insanlar müsəlman olduqdan sonra orduda və ya hökumətdə işləmək üçün təlim keçmişdilər [13, s. 85]. Qulam sisteminin tətbiqi I Şah Abbasa ağa-qul paradiqmasını qəbul etməklə tayfa həmrəyliyi təhlükəsini dəf etməyə imkan verən yeni əsası yaratdı. Səfəvi siyasi diskursunda qulam (qul) təyinatı şaha sədaqət deməkdir. I Abbas tərəfindən möhkəmləndirilmiş yeni ağa-qul paradiqması qəbilə idarəçiliyinə qarşı tədbir rolunu oynayırdı. Tayfa strukturunda çatlar yaratmaq üçün I Abbas ayrı-ayrı qəbilə üzvlərinə himayədarlıq edirdi və bunun müqabilində şahın şəxsiyyətinə qeyd-şərtsiz sədaqət və məhəbbət tələb edirdi, buna görə də "şahsevən" termini yaranır. Qulam sistemi keçmişdən qopmağı tamamladı və zirvədə şah olan Səfəvi ailəsini qorumaq üçün ən təsirli vasitə olduğunu sübut etdi [25, s. 7]. I Abbas qızılbaşları dövlətə sədaqətsizliklərinə görə nə qədər cəzalandırmaq istəsə də, onların hələ də döyüş qüvvələrinin əsasını təşkil etdiyini görməli idi. Buna görə də Səfəvi şahının ilk addımları mərkəzi hakimiyyətin möhkəmləndirilməsinə yönəldildi.

Hatəm bəy Ordubadi ilə birlikdə islahatlar planı hazırlayan I Şah Abbas onları həyata keçirməyə başladı. Onun həyata keçirdiyi islahatlar nəticəsində dövlət ərazisində siyasi sabitlik bərpa edildi. Daxili sabitliyin yaranması sosial-iqtisadi və inzibati islahatlar keçirməyə imkan verdi. I Şah Abbasın inzibati islahatları Səfəvi dövlətini canlandırdı və möhkəmləndirdi. O, inzibati quruluşu elə möhkəm əsaslar üzərində qurdu ki, ondan sonra gələn şahların bütün uzaqgörənliyinə və acizliyinə baxmayaraq, dövlət onun ölümündən sonra bir əsr fəaliyyət göstərdi. Keçirilmiş maliyyə tədbirləri dövlətin xəzinəsini zənginləşdirdi, məhsuldar qüvvələr canlandı. Səfəvi dövləti sosial-iqtisadi və siyasi cəhətdən xeyli möhkəmləndi. I Şah Abbas nizami ordu yaratmaq əzmində idi, lakin indi o, bu əsgərlərin maaşlarının haradan veriləcəyi məsələsini həll etməli idi. I Şah Abbasdan əvvəl Səfəvi ordusunun əksəriyyəti qızılbaş döyüşçülərindən ibarət idi. Eyni şəkildə əyalətlərin idarəsi tiyul şəklində Qızılbaş əmirlərinə verilirdi. Bəylərbəyilər şahın istədiyi vaxt müəyyən sayda əsgər gətirmək şərti ilə əyalət gəlirlərinin böyük bir hissəsini almaq və xərcləmək hüququna malik idilər. Bu yerlərdən şaha ancaq az miqdarda məbləğ, adətən, peşkəş şəklində çatırdı. Lakin şahın xəzinəsinə toplanmış cüzi miqdarda pul vəsaiti ilə yeni yaradılacaq nizami ordunun maaşını ödəmək mümkün deyildi. Şahın əsas gəlir mənbəyi onun "xassə" torpaqları idi ki, bu torpaqlardan da şahın özü, onun kətxudası və mübaşiri tərəfindən vergi toplanılırdı. I Şah Abbas bəzi dövlət (məmalik) vilayətlərini xüsusi (xassə) vilayətlərə çevirməklə gəlir məsələsinin həllini tapdı [13, s. 88]. Həyata keçirilən hərbi islahatlar nəticəsində Qızılbaşlardan, qulamlardan, tüfəngçilərdən və topçulardan ibarət müxtəlif dərəcəli qoşun növləri təşkil olundu. Hərbi-köçəri qızılbaş əyanlarının müqaviməti qırıldı [4, s. 708]. Azərbaycan türklərindən ibarət qızılbaş süvari dəstələri yenidən bərpa edildi. Nəticədə odlu silahlarla təchiz edilmiş 116 minlik güclü nizami ordu yaradıldı.

I Şah Abbasın mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışdığı illərdə Gilanda baş verən hadisələr, bu vilayətin hakimi Xan Əhmədin Səfəvi dövlətinə qarşı apardığı separatist siyasəti fonunda Qızılbaş dövlətinin düçar olduğu ağır şəraitdə yeni hökmdardan uzaqgörən ardıcıl siyasətin yeridilməsi xətti tələb olunurdu. Çünki müstəqillik meyllərində olan və Səfəvi dövlətinin mərkəzi hakimiyyətinə qarşı siyasət yürüdən Gilan hakimləri mütəmadi şəkildə xarici dövlətlərin dəstəyini arayırdılar [8, s. 103].

Hadisələrin cərəyan etdiyi dövrdə Səfəvi dövlətinə qarşı kəskin separatist mövqedə olan Xan Əhməd dəstək üçün Osmanlı dövlətinə müraciət etmiş, bu dəstəyi almadıqdan sonra ümidlərini Moskva dövlətinə bağlamışdı. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Gilan hakimlərinin bu dövrdə Moskva dövlətilə yaxınlaşmaları sadəcə siyasi deyil, eyni zamanda iqtisadi maraqlardan qaynaqlanırdı. Məlum olduğu kimi, Gilan əyaləti əsas ixrac əmtəəsi olan xam ipəyin istehsalına və satışına görə Səfəvi dövlətində aparıcı mövqedə idi. XVI əsrin ikinci yarısından etibarən Volqa-Xəzər ticarət yolunun aktifləşməsi beynəlxalq ticarətdə Gilan əyalətinin rolunu daha da artırmış oldu. Həştərxanda öz ticarət evlərini təsis etmiş və Moskva dövlətilə birbaşa ticarət əlaqələri qurmuş Gilan tacirləri bunun sayəsində böyük gəlir əldə etmək imkanı qazanmışdılar. Lakin 1578-ci ildə başlayan Osmanlı-Səfəvi müharibəsi nəticəsin-

də Şirvanda möhkəmlənən Osmanlılar şimala gedən ticarət yollarını öz nəzarətinə almaqla Səfəvi-Moskva ticarət əlaqələrini və xüsusilə Xəzər dənizinin qərb sahillərilə hərəkət edən Gilan tacirlərinin bu sahədəki fəaliyyətini zərbə altına qoymuşdular. Yaranmış vəziyyətdə aydındır ki, Xəzəryanı bölgənin Moskva dövlətinin nəzarəti altına keçməsi və nəticə etibarilə bu dövlətlə vasitəçisiz, birbaşa ipək ticarətinin gerçəkləşdirilməsi Gilan hakim təbəqəsinin maraqlarını iqtisadi cəhətdən təmin edirdi. Bununla yanaşı, Moskva dövlətilə yaxınlaşma və onun himayəsinə sığınma Gilanın qiyamçı hakimi Xan Əhmədin ümidlərinə cavab verirdi [18, s.117; 8, s. 103].

İki Xəzəryanı şəhəri Dərbənd və Bakını Moskva dövlətinə təslim etmək müqabilində Osmanlı dövləti əleyhinə ittifaqının yaradılması təklifi ilə Səfəvi sarayının elçisi kimi Kremldə peyda olmuş Hadı bəy Gilan hakimlərinin arzusunu ifadə etmiş və hətta onların təlimatı ilə hərəkət etmişdi. Bu ehtimalın doğruluğuna rus mənbələrindəki məlumatlar ciddi şəkildə haqq qazandırır. Hadı bəy ilə birgə Səfəvi sarayına göndərilən rus heyətinin Gilanda Xan Əhmədin adamları tərəfindən tam iki ay müddətində saxlanılmasına və paytaxt Qəzvinə yola düşməsinə müxtəlif bəhanələrlə maneçilik törədilməsinə qəzəblənən Vasilçikovun rus heyətinə qarşı edilən bu haqsızlıqlara və ya özünün ifadəsi ilə desək, törədilən "böyük şərəfsizliklərə" [17, s. 85] cavab olaraq Hadı bəyin üzünə dediyi sözlər mülahizələrimizi doğrulayacaq mahiyyətdədir: "Sənin hakimin Xan Əhməd bizim hökmdarımız çar əlahəzrətləri ilə şah əlahəzrətləri arasında qardaşlıq, dostluq və məhəbbətin bərqərar olmasını istəmir... biz düşünürdük ki, sən birbaşa Qızılbaş yurdundansan, sən isə Gilan torpağının adamısan... və bizə indi elə gəlir ki, sən bizim hökmdarımız çar həzrətlərinə cəfəngiyat ilə gəlmisən" [21, 44; 8, s. 103-104].

Osmanlılar əleyhinə ittifaqın bağlanmasının şərti kimi Azərbaycan şəhərlərinin Moskva dövlətinə güzəşt edilməsi təklifinin bir sövdələşmə olmasına və Səfəvi hakimiyyətinin əsl niyyətini əks etdirməməsinə dair mülahizə sonrakı, xüsusilə Gilan ilə bağlı hadisələrlə təsbit olunur. 1592-ci ilin may ayında I Şah Abbas şəxsən özünün başçılıq etdiyi ordu ilə Gilana yürüş təşkil edərək orada Səfəvi hakimiyyətini bərqərar etdikdən dərhal sonra Moskvaya göndərdiyi Hacı Xosrov adlı elçisi Kreml hakimiyyətini bu barədə məlumatlandırmış və xəbərdarlıq etmişdi ki, "Gilan vassallıqdır, orada hökmdarımızın [Şah Abbasın – red.] canişinləri oturur və indiyədək Gilanda hökmdarımızın canişini kimi çar Əhməd otur累du" [21, s. 187]. Elçi həm də bildirmişdi ki, Xan Əhmədin osmanlılarla əlaqəyə girməsi və sonradan da Osmanlı tərəfinə keçməsi məlum olduqda I Şah Abbas Gilana Məhəmmədqulu xan adlı öz yaxın adamını təyin etmişdi. Beləliklə, bu elçiliyin əsas məramı Gilanda Səfəvi dövlətinin suverenliyinin bərpa olunması barədə şimal qonşunu xəbərdar etmək idi [8, s. 104].

Gilanda Səfəvi hakimiyyətini bərpa edib möhkəmlədirdikdən və nəticə etibarilə şimaldan gələn təhdidi aradan qaldırdıqdan sonra Moskva dövlətilə Azərbaycan şəhərlərinin təslimi ilə bağlı diplomatik oyunu davam etdirməyə artıq ehtiyac qalmamışdı.

Uzaqgörən və tədbirli siyasətçi kimi tarixdə "Böyük" ləqəbini alan və buna tam layiq olan I Şah Abbas B.Qodunovun diplomatik oyunlarını duysa da, şimal qonşusu ilə müttəfiqlikdən əl çəkmək istəmirdi. Buna görə də şah rus çarından yan keçərək, bilavasitə avropalılarla antiosmanlı ittifaqı yaratmaq üçün danışıqlar aparmağa, mövcud vəziyyətlə bağlı mövqeyini ört-basdır etməyə çalışırdı. Buna görə də Avropaya cəmi 43 nəfərdən ibarət səfirlik göndərdiyi halda, Moskvaya 300 nəfərlik heyət yola salmış və B.Qodunova Sasanilər dövrü şahənşahlarının qızıl taxtı hədiyyə aparılmışdı [19, s. 78-79; 7, s. 115].

Yerli sülalələr devrildikdən sonra, Gilan (1592) və Mazandaran (1596) xassə əmlakına çevrildi. Bu bölgələrdəki separatizmin qarşısı alındıqdan sonra I Abbas bir tərəfdən Gilana, Mazandarana, Astrabada, Kaşana qızılbaşlardan yeni hakimlər təyin etdi, digər tərəfdən isə gələcək mərkəzdənqaçma hərəkətlərinin qarşısını almaq üçün onların əsilzadələrinə hakimiyyətdə qismən də olsa, yer vermək zorunda qaldı.

Ulu babası I Şah İsmayılın xarici siyasət xəttinə sadiq qalan I Şah Abbas fəal xarici siyasət yürüdərək Avropa ölkələri və qonşu dövlətlərlə ticarət əlaqələrini genişləndirməklə yanaşı, itirilmiş əraziləri geri qaytarmağa lazımi köməklik göstərmələri üçün Qərb dövlətləri ilə

hərbi-siyasi danışıqları gücləndirdi. O, Venesiya, Almaniya, İspaniya, Roma papası, İngiltərə və Moskva knyazlığı ilə diplomatik əlaqələr yaratmaq məqsədilə danışıqlara başladı. Almaniya və İspaniya hökmdarları Osmanlı dövlətinə qarşı başlanacaq müharibədə Səfəviləri dəstəkləyəcəklərini vəd etdilər. Bəsrə körfəzi və Hind okeanında hollandlar, portuqallar və ingilislər arasında baş verən ticarət savaşları I Abbasın Qərblə diplomatik əlaqələr qurmasına yol açdı. Bütün məsələlərdə tam praqmatist olan I Abbas xristian din xadimlərinə göstərəcəyi tolerantlığın Avropa ilə ticarəti canlandıracaq bir mühit yaradacağını anlamışdı. Eynilə, Məşhədi əsas şiə ziyarət mərkəzlərindən birinə çevirməklə, digər müqəddəs şiə mərkəzləri olan Kərbəla, Nəcəf, Kazimeyn və Samirədə xərclənə biləcək məbləğin Səfəvi xəzinəsində qalmasını təmin etdi [13, s. 106, 107].

Səfəvi hökmdarı I Abbasın siyasi həyatında xüsusi önəm verdiyi məsələlərdən biri də türk dilinin nüfuzunu qoruyub saxlaması və daha da möhkəmləndirməsidir. Azərbaycan türk dili I Abbasın da doğma dili idi və onun sarayında da əcnəbi ölkələrdən gəlmiş elçilərlə rəsmi diplomatik danışıqlar bu dildə aparılırdı. Bu barədə italiyalı səyyah Pyetro della Valle aydın məlumat verir. 1617-ci ildə Səfəvi sərhədini keçən Pyetro della Valle Qızılbaş dəstəsi ilə qarşılaşdığını və onlara Qəsri-Şirin nahiyəsinin hakimi Kazım sultanın başçılıq etdiyini göstərir. Yazır ki, bir müddət süvarilərlə yol getdik. Onların hamısı bir-biri ilə türk dilində danışırdı. Bu dil Səfəvi dövlətində fars dilindən daha çox işlənir, dövlət və hərb dilidir. O, bunun əsas səbəbini ordunun, əyanların, dövlət məmurlarının türk soyundan olmaları, aralarında bu dildə danışmaları, türk dilinin hərbi dil olması ilə izah edir. I Şah Abbas haqqında səyyah yazır ki, təbəələri ona çox inanır, başına and içir, Həmədanda bir nəfər digərinə müəyyən bir şey diləmək arzusunda olanda türk dilində "Şah Abbas muradını versin" deyirlər. O, yazır ki, Qızılbaş əsgərlərinin təmiz türk olması, qeyri millətlərin çoxluq təşkil etdiyi qulamların türk dilindən başqa dil bilməməsi, şahın orduda göstərişi, əmrləri bu dildə verməsi türk dilini dövlət, saray, hərbi dil səviyyəsinə qaldırmışdır. I Şah Abbasın səyyahı türk dilində "xoş gəldin", "səfa gəldin" deyə qarşılaması, divanxanada danışıqların türk dilində getməsi, I Şah Abbasın sarayında türk dilinin əsas danışıq dili olmasının gerçək göstəricisi idi. Şahın özü də Pyetronun yazdığına görə, doğma türk dilini mükəmməl bilməsi ilə fəxr edirdi [37, s. 21, 25, 50, 72, 87, 229-230; 2, 71-72].

İspaniyalı elçi Don Qarsiya de Silva Fiqueroa 1618-ci ildə I Şah Abbas tərəfindən qəbul edildiyi rəsmi məclislərin birində Osmanlı, Lahor, Özbək, Venesiya, İngiltərə elçilərinin iştirak etdiyini və burada danışıqların türk dilində getdiyini, bu dilin Səfəvi sarayında işlək dil olduğunu yazır [35, 363; 2, s. 72]. Adam Oleari yazır ki, Şirvan, Azərbaycan, İraq, İrəvanda uşaqları daha çox türk dilində tərbiyə edirlər, xüsusən şah türk dilində həvəslə danışır, İsfahanda şah sarayındakılardan təsadüfən fars sözü eşitmək olur. Onun müşahidələrinə görə divanxanada rəsmi görüşdə, sarayda əcnəbi elçilərə verilən qonaqlıqda süfrə xeyir-duasının türkcə oxunması, dövlət nazirlərinin də türkcə danışmaları bu dilin gerçək dövlət dili statusunda olduğunu göstərir [bax: 20, s. 114, 554, 658, 813; 2, s. 72-73]. E.Kempfer də yazırdı ki, İsfahanda Səfəvi sarayında işlək dil türk dili olub, Səfəvi sülaləsinin də doğma ana dilidir. Türk dili saraydan dövlətin böyükləri və hörmətli adamların da evlərinə yayılmış və şahın mərhəmətini qazanmaq istəyənlərin hamısı bu dildə danışırlar. Bu gün iş belə bir duruma çatmışdır: "Kim istəyir başı bədənin üstündə salamat qala, onda türk dilini bilməlidir". Bu dil həddən çox ciddi, ahəngdar və əzəmətli olduğuna görə də sarayın danışıq dili olmuşdur [35, s. 167].

I Abbas sarayda əcnəbi diplomatlarla görüş zamanı türk dilində danışdığı kimi, diplomatiya dili kimi türk dilinə də xüsusi önəm vermişdi. I Şah Abbasın 1622-ci ilin sentyabrında Həştərxan voyevodasına göndərdiyi türk dilində fərmanı [bax: 23, s. 28-33; 8, s. 110], eləcə də 1624-cü ildə Polşa kralı III Sigizmunda yolladığı türk dilində məktubu [bax: 33, s. 159-167; 7, s. 120] diplomatıya dili kimi türk dilinin Səfəvi sarayında önəmli rol oynadığını təsdiq edir.

***2. Nizami ordunun yaradılması. İtirilmiş ərazilərin azad edilməsi***

I Şah Abbasın paytaxtı Qəzvindən İsfahana köçürmək qərarı qızılbaşların dominantlıq etdiyi nizam daxilində yaşaya bilməyən yeni ictimai-hərbi sistemin yaratdığı ziddiyyətləri əhatə

edir. I Abbasın İsfahanı hökmdar və onun qul ailəsinin bütün imperiyada öz güclərini genişləndirdiyi yeni fiziki və mədəni mühit rolunu oynadı [25, s. 8]. 1598-ci ildə Səfəvi şahı dövlətin paytaxtını cəbhə bölgəsinə yaxın olan Qəzvindən İsfahana köçürdü. I Şah Abbas paytaxt seçdiyi İsfahanı sözün əsl mənasında öz əlləri ilə yenidən tikdirdi. R.Seyvorinin qeyd etdiyi kimi, Xəlifə Mənsur tərəfindən VIII əsrdə Bağdadın inşasından sonra İslam dünyasında belə hərtərəfli şəhərsalma görülməmişdi. Xüsusilə, şəhər mərkəzinin dizaynı və planı imperiya paytaxtına yaraşan bütün xüsusiyyətlərə malik idi. Şəhərin ürəyi San Marko meydanından yeddi dəfə böyük olan Nəqşi Cahan meydanı idi. Ali Qapı sarayı, geniş Qeysəriyyə bazarı və Səfəvi memarlığının iki əfsanəvi şah əsəri olan Məscidül-Şah və Şeyx Lütfüllah camiləri meydanı əhatə edirdi. Cənubda geniş, üç zolaqlı Çahar bağ küçəsi şəhərə doğru uzanır; terraslı bağları və saray elitasının və digər əyanların gözoxşayan bağları olan zərif malikanələrlə dolu böyük bir sarayı düz yarıya bölürdü. Buradan sonra Allahverdi xan körpüsü ilə Zayəndə-rud çayını kəsən küçə şəhərin ən işlək ticarət və həyat mərkəzinə çevrildi [13, s. 105].

1598-ci ildə paytaxtın İsfahana köçürülməsi dövlətin mərkəzi vilayətlərinin inkişafı üçün zəmin yaratdı. Həmin ildə I Şah Abbas yeni yaradılmış nizami ordunun başında Xorasana yürüş etdi. Herat yaxınlığında Puli-Salar döyüşündə Şeybani ordusu məğlub edildi, Xorasan və ətraf ərazilər yenidən Səfəvi dövlətinə birləşdirildi [4, s. 701].

1601-1602-ci illər də Səfəvi şahı portuqallara qarşı hərbi əməliyyatlara başladı və Bəsrə körfəzinə çıxışları olan qalalar və Bəhreyn adaları ələ keçirildi [5, s. 1121-1122].

I Şah Abbas dövlətinin tarixi sərhədlərini bərpa etmək, xüsusilə dövlət üçün böyük iqtisadi əhəmiyyəti olan Azərbaycan ərazisini Osmanlı işğalından azad etmək üçün müharibəyə ciddi hazırlıq gördü. Onun keçirdiyi bütün islahatlar Osmanlı dövlətinin məğlub edilməsi siyasəti ilə sıx bağlı olmuşdu. 1603-1607-ci illər Səfəvi-Osmanlı müharibəsində Səfəvilərin Osmanlı ordusu üzərində qazandığı qələbələr nəticəsində Azərbaycan ərazisi işğaldan tamamilə azad olundu. Osmanlı sultanı I Əhməd və I Mustafanın itirilmiş əraziləri geri almaq məqsədilə Səfəvi dövlətinə qarşı başladığı yeni müharibələr uğursuzluqla sona yetdi. I Şah Abbas Osmanlı işğalından azad edilmiş əraziləri Səfəvi imperiyasının tərkibində saxlamağa nail oldu. Osmanlı dövləti ilə imzalanmış İstanbul (1612) və Mərənd (1618) sülhlərinə görə Osmanlı sultanı Amasya sülhünün (1555) şərtlərinin bərpasına razı oldu [22, s. 82; 6, s. 312].

1622-ci ildə I Şah Abbas tərəfindən Qəndəhar bölgəsi Moğollardan, Hörmüz isə Portuqaliyadan geri alındı. 1624-cü ildə Bağdadın Qızılbaş ordusu tərəfindən ələ keçirilməsi ilə Səfəvi imperiyasının keçmiş sərhədləri bərpa edildi. I Şah Abbas 1624-1626-cı illərdə Osmanlı dövləti ilə apardığı müharibədə mühüm uğur qazanaraq Ərəb İraqını öz əlində saxlamağa nail oldu [bax: 6, s. 316-320].

### *3. I Şah Abbas Səfəvinin siyasi portretinin başlıca cəhətləri*

Dövrünün tanınmış sərkərdəsi və dövlət xadimi olan I Şah Abbas xalqın yaddaşında keçirdiyi islahatları, uğurlu hərbi əməliyyatları, köçürmə siyasəti ilə bərabər apardığı geniş quruculuq işləri ilə də qalmışdır. Onun dövründə müharibədən əziyyət çəkən bölgələrin iqtisadiyyatı qısa müddət ərzində bərpa edildi, əhali müəyyən vergilərdən azad olundu və dağıdılmış şəhərlər yenidən bərpa edildi [5, s. 1302-1303, 1323]. İsgəndər bəy Münşi yazır ki, “Rəiyyətin rifahının yüksəldilməsi onun nurlu ürəyində qərar tutubdur. Onun haqq niyyəti buna sərf olunur ki, Allahın yaratdıqları və bəndələri onun əbədi dövləti zamanında əmin-əmanlıq altında asudə olsunlar və Allahın xəlq etdiklərinin xatirində təşviş və oyanmasına bais olan zülm əlləri məmləkətdən çəkindirsinlər. O, rəiyyətə divan vergilərindən külli miqdarda yüngülləşdirmələr bəxş etdi. Əvvəla, Əcəm İraqının on beş min İraq tüməninə yaxın olan sər-gelle vergisi o vilayətin əhalisinə bağışlanıldı... Bundan başqa, ramazan ayında məmləkətlərin bütün şiələrini divani mükəlləfiyyətlərdən azad edib, divan işçilərinin əməlləri ucbatından iyirmi min tümənə yaxınlaşmış bütün məmləkətin ehdas və malıyekmahə vergilərini rəiyyətə sədəqə etdi” [3, s. 708-709].

Əksər farsdilli mənbələr təsdiq edir ki, güclü iradə sahibi olan I Şah Abbas dövrünün ən adil, ağıllı, qətiyyətli hökmdarı və bacarıqlı həmlələr etməyi bacaran mahir siyasi dövlət xa-

dimi olmuşdur. O, Səfəvi dövlətini bir tərəfdən daxili təlatümlərdən, digər tərəfdən isə xarici təhdidlər qarşısında süqut etmək təhlükəsindən xilas etdi, həm də ona ən parlaq və qüdrətli dövrünü yaşatdı. Buna görə də, tarixçilər tərəfindən onun uzun sürən uğurlu hakimiyyəti Qanuni Sultan Süleymanın dövrünə bənzədilmişdir [15, s. 19; 10, s. 278].

I Şah Abbas ömrü boyu dövlətinin sərhədlərini genişləndirməyə çalışmışdır. Hətta ölümündən bir müddət əvvəl o, Fars bəylərbəyi İmamqulu xanla Xuzistan hakiminə Bəsrəni ələ keçirmək tapşırığını vermişdi [15, s. 19; 10, s. 278].

Qeyd etmək lazımdır ki, dövrünün tarixçiləri I Şah Abbası cəsur, tədbirli, ədalətli, məntiqli, uzaqgörən siyasi xadim, geniş dünya görüşə sahib olan bir şəxs kimi qiymətləndirmişlər.

Öz fenomenal keyfiyyətləri ilə insan zəkasını heyrətdə saxlayan bir insan olmaqla I Şah Abbas yalnız Azərbaycan xalqının deyil, bütünlükdə bəşər tarixinin yetişdirdiyi görkəmli şəxsiyyətlərdən biridir. Avropa tarixçiləri müdrik dövlət idarəçiliyi və quruculuq işləri ilə şöhrət qazanmış, elm və sənət hamisi olmuş I Şah Abbası "Böyük" sözü ilə xatırlamışlar [13, s. 110; 11, s. 17]. Bu böyük insanın adını ədalət və müdriklik rəmzi sayan Asiya xalqları isə onu sanki bütləşdirmişlər. I Şah Abbas o qədər ictimai binalar ucaltmış ki, Şərqin heç bir hökmdarı bu sahədə onunla müqayisə oluna bilməz. I Şah Abbasın xalq arasında nüfuzu elə yüksəkdir ki, o, Azərbaycan nağıl və dastanlarının qəhrəmanına çevrilmişdir [12, s. 118-119].

R.Seyvorinin fikrincə, I Şah Abbas ona "Böyük" yarlığını almaq hüququ verən çoxlu xüsusiyyətlərə malik idi. O, əsas xüsusiyyəti ehtiyatlılıq olan iti zəkalı strateq və taktik idi. O, özünün istədiyi sonluğa çata bilmək üçün müharibədənsə diplomatiyaya üstünlük verir və öz hədəfləri uğrunda böyük səbr göstərirdi. O, xarizmatik bir lider idi. I Abbas sədaqətsiz məmurlarını cəzalandırmaqda amansız olduğu kimi, etibar etdiyi davamçılarına sevgisində də bir o qədər ehtiraslı və səmimi idi. O, döyüşdə şücaət göstərənlər barəsində dərhal ona xəbər verilməsini istəyər, qəhrəmanlıqlarına görə onları layiqincə mükafatlandırardı. I Abbas etimadını qazanmış adamlarına geniş bir səlahiyyət sahəsi verirdi. O, xalqının qəlbinə toxunan, təbəələri tərəfindən sevilən bir şəxs idi. O, tez-tez təğyiri-libas olub əhalinin güzəranı ilə maraqlanır; İsfahanın küçələrini, bazarlarını dolaşar, çayxanalarda insanlarla söhbət edərdi. O, təvazökar və sadə geyinirdi [32, s. 203; 15, s. 515-516; 13, s. 110-111]. M.Aksvorti yazırdı: "Abbasın şah kimi qazandığı nailiyyətlər hərbi uğurlardan tutmuş institusional islahatlara və möhtəşəm memarlıq abidələrinin tikintisinə qədər müxtəlif idi – bütün bunlara görə o, adətən "Böyük Abbas" kimi xatırlanır. O, istedadlı rəhbər və hərbi lider olmaqla bərabər mərhəmətsiz avtokrat idi. Onun hakimiyyəti dövrü Səfəvi dövrünün görkəmli yaradıcılıq erasıdır. Lakin vətəndaş müharibələri və uşaqlıq illərinin problemləri (onun qohumlarının çoxu öldürülmüşdü) onun şəxsiyyətinin mərkəzində qaranlıq bir şübhə və qəddarlıq bükümü buraxmışdı [24, s. 134].

İsgəndər bəy Münşiyə görə, "o həzrət (yəni Şah Abbas – red.) bol-bol fəhmə, fərasətə, ali idraka, yüksək fitrətə, kamil biliyə malikdir və hamıya bəlli olan dünya işlərində doğru rəyə və parlaq fikrə sahibdir. Çünki o, rəhbərlik kürsüsündə qərar tutduqdan sonra cahandarlıq üslubunu, hərbçilik, qoşun çəkmək və səf tərtib etmək qaydalarını, insaf və səxavət ədəb-ərkanını zəmanə sultanları arasında təzələdi və onun xoşagələn fərmanları dünyanın iş cədvəlinə və kama yetmiş xoşbəxt padşahların fəaliyyət nizamnaməsinə çevrildi" [3, s. 703-704]. O, bir çox bacarıqlı və təcrübəli sərkərdələrə rəhbərlik etsə də, bütün hərbi səfərlərdə onun mühakiməsi, strateji fərasəti və uzaqgörənliyi həmişə onlardan üstün olub. Eynilə, onun irəli sürdüyü bəzi təkliflər müşavirləri tərəfindən düşünülməmiş hesab edilsə də, sonda onun haqlı olduğu sübuta yetirildi. I Şah Abbas hərbi əməliyyatların aparılması, ordunun təşkili və komandanlığı, ədalətin həyata keçirilməsi ilə bağlı standartları yüksəltdi. Beləliklə, o, çiçəklənən imperiya siyasətinin əsasını qoydu və bütün dünyada heyranlıq qazandı [25, s. 595; 31, s. 65].

İsgəndər bəy Münşi qeyd edir ki, I Şah Abbasın ən mühüm xüsusiyyətlərindən biri də onun təbəələrinə qarşı münasibətdə şəfqət və mərhəmət göstərməsi, halallıq və doğruluq tərzinə malik xidmətkarların və fədakarların hüquqlarını gözləməsi və onların könlünü xoş tutub hörmət bəsləməsidir. Əgər kimsə təbii səbəblərdən və ya döyüş meydanında ölübsə, padşah ailə üzvlərinə və himayəsində olanlara sə-

xavətlə yanaşırdı. Dövlət məmurlarına gəlincə, o, ailələrini dolandırmaq, səxavət və lütfkarlığını göstərmək üçün mərhumun oğullarını azyaşlı olsa, tutduğu vəzifələrə təyin edirdi. I Şah Abbasın maddi sərvətlərə marağı az olduğu üçün o, heç vaxt mərhumun mal-dövlətinə təkəbbür göstərməyə çalışmamış, onları ədalətli şəkildə varislər arasında bölüşdürmüşdür [3, s. 713-714].

Səfəvi şahının bu müsbət keyfiyyətlərini yüksək qiymətləndirən A.A.Bakıxanov yazırdı: "Şah Abbas məmləkəti abad etmək və rəiyyətin asayişinə baxmaq işlərində bütün dünyada məşhurdur. Qoymuş olduğu bir çox mülki və əsgəri qanunlar, İran şahları üçün rəhbər olmuşdur. Sultanların ləyaqətini onların xüsusi məziyyətlərinə görə təyin edən Avropa tarixçiləri belə, bu elmi sevən padşaha "Böyük" ləqəbi vermişlər. O, xalq arasında indi də adil sifətlə tanınmaqdadır. İctimai binalar və xeyriyyə müəssisələri tikdirməkdə islam dövründə, İranda bu padşahın misli və tayı olmamışdır. Bütün - İranda, o cümlədən, Şirvan ölkəsində olan məscidlər, mədrəsələr, uzaq çöllərdəki kəhrizlər və çoxlu karvansaralar bu iddianın doğruluğuna aydın bir sübutdur. Bir çox fazil şəxslər, onun tərbiyəsi sayəsində, elm və fəndə öz dövrünün başçılarından olmuş və bütün dünyada böyük şöhrət qazanmışlar. İşinin çoxluğuna və bir çox müşkül işləri həll etməklə məşğul olmasına baxmayaraq o, kamil adamlarla müsahib olmağa mail olub, gözəl təbi-şeirə də malik idi" [1, s. 143-144].

Böyük bir imperiyanı bərpa edən, onu yenidən dirçəldən, Şərqin, İslam aləminin və bütünlükdə, dünyanın tarixində silinməz izlər qoymuş Səfəvi şah nəslinin görkəmli nümayəndəsi kimi I Şah Abbas təxminən dörd əsrdir ki, ən müxtəlif salnamələrin, tədqiqat əsərlərinin, araşdırmaların, elmi və bədii əsərlərin mövzusu olmuşdur və bu gün də olmaqdadır. Çünki I Şah Abbas geniş fəaliyyət meydanına qədəm qoymaqla bölgənin hərbi, siyasi tarixində tamamilə yeni bir səhifənin başlanğıcını qoydu. Onun dühasının yaratdığı tarixin ümumi mənzərəsinin işıqlandırılması, mahiyyətinin dərk edilməsi isə yalnız elm və bilik adamları üçün deyil, elə xalq kütlələrinin özü üçün də hər zaman maraq kəsb etmişdir. Onun haqqında çoxlu sayda xalq yaradıcılıq nümunələrinin meydana gəlməsi, həyat yolu ilə bağlı çoxlu sayda məxəzlər yaradılması da həmin maraqdan irəli gəlmişdir.

I Şah Abbasın dövlətçilik zəkası və təşkilatçılıq qabiliyyəti onun tarixi dəyərini təsdiq edə biləcək ən mühüm keyfiyyətlərdən biridir. I Şah Abbas hərbi strateq kimi münaqişəni diplomatik yolla həll ediləcəkdisə, müharibəyə başlamağa tələsməz, problemi sülh yolu ilə həll etməyə üstünlük verərdi. Lakin müharibə başlanardısa, o, mükəmməl komandan və strateq kimi döyüş meydanında ordusuna rəhbərlik edər, cəsur bir döyüşçü kimi özünü təhlükəyə atmaqdan çəkinməzdi. Əsgərlərinin qabiliyyətini sona qədər ortaya çıxarmağa çalışan I Şah Abbas hərbi yürüşlərə qış mövsümündə də çıxardı.

O, İsfahanda Nəqşi-cahan meydanında xalq arasına qarışar və müxtəlif təbəqədən olan insanlarla söhbətlər apardı. I Şah Abbasın başlıca məqsədi dövlət ərazisində nizam-intizamı və asayişi təmin etmək idi. O, dövlətin yaxşı idarə olunması üçün hökmdarın güclü və verilən fərmanların vaxtında həyata keçirilməsinin vacib olduğunu daim söyləyirdi. O, verdiyi əmrlərin həyata keçirilməsində qətiyyətli və güzəştsiz idi, hər kəs şahın əmrlərini ləngimədən həyata keçirməyə çalışırdı [30, s. 32, 35].

I Şah Abbas xalqın vəziyyətini yaxından öyrənmək üçün ya təkbaşına, ya da vəzirləri ilə birgə tərkilibas olaraq xalqın içində gəzərdi. O, Nəqşi-cahan meydanını gəzən zaman çörəkçidən çörək, qəssabdan ət alaraq saraya dönmüş, onların çəkisi düz olmadığı üçün çörəkçini və qəssabı cəzalandırmışdı. O, hətta hərbi yürüşlər zamanı qaldığı şəhərlərdə xalq arasına çıxaraq yerli məmurların xalqla necə davrandıqlarını araşdırar, şikayətlə qarşılaşdığı məqamlarda şəhər hakimini dəyişərdi [32, s. 203; 16, s. 515-516].

I Şah Abbasın siyasi və hərbi uğurları nə qədər möhtəşəm olsa da, onun hakimiyyətinin yalnız bir tərəfi idi. I Abbasın hakimiyyəti həm də Səfəvi sənətinin zirvəyə çatdığı dövrü təmsil edir. Onun himayəsi ilə xalçaçılıq sadə məişət sənətindən təsviri sənət səviyyəsinə yüksəlmişdi. Bu dövrdə ölkənin başlıca toxuculuq mərkəzlərində istehsal olunan məmulatlar rəng və dizayn baxımından eyniləşdirilə bilməzdi. Başlıca xammal olan ipək və brokar parçalar eyni dərəcədə məşhur idi. I Şah Abbas ipək istehsalını və satışını inhisara aldı. İşıqlandırma, başqa sözlə, əlyazmaların naxış və təsvirlərlə bəzədil-

məsi, gözəl xəttatlıq və cildləmə sənəti ən parlaq dövrlərini I Abbas dövründə keçirmişdir. Səfəvi dövrünün keramika məhsulları Avropa bazarlarında Çin məhsulları ilə rəqabət aparmağa başladı. Səfəvi məscidləri, mədrəsələri, türbələri və binaları bənzərsiz gözəlliyə malik idi.

1666-cı ildə taxta çıxmış Süleymanın tacqoyma mərasimində iştirak edən J.Şarden I Şah Abbasın padşahlığına – qırx il geriyə nəzər salanda orada qızıl dövrü görmüş və düşünmüşdü ki, I Abbasın ölümü Səfəvilər ailəsi ilə birlikdə dövlətin taleyini qaraltmağa başlayıb. R.Seyvori haqlı olaraq yazmışdır ki, sözün əsl mənasında I Şah Abbasın əli ilə yenidən qurulmuş Səfəvi dövləti XVII əsrin II yarısında artan fəsad və tənəzzülü gizlədə biləcək bir əzəmətə malik idi. “Üçüncü qüvvə” ünsürlərindən nizami ordunun yaradılması qızılbaşların məğrur gücünü qısa müddətdə tarazlaşdırmaq zərurətini qarşıladı. Lakin son nəticədə bu, dövlətin hərbi gücünün aşınması ilə nəticələndi. Eləcə də, “dövlət” torpaqlarının xassə (xüsusi) torpaqlara çevrilməsi təşkil edilən ordunun əsgərlərinə ödənilməli olan pulun mənbəyinə çevrildi. Lakin uzunmüddətli perspektivdə bu seçim bəzi digər amillərlə birlikdə əyalət idarəçiliyinin səviyyəsini aşağı salmaqla yanaşı, həddindən artıq vergilərə səbəb oldu. Üstəlik, şahzadələrin hərəmxanada saxlanması şahı qısa müddətdə hakimiyyətinə qarşı mümkün sui-qəsd və hiylələrdən xilas etdi. Lakin çox keçmədən bunun sülaləni əhatə edən bir fəsad mənbəyinə çevrildiyi məlum oldu. Üstəlik, bu dəyişikliklə hərəmxanadakı qadınlar, saray əyanları və hərəmlə əlaqəsi olan digər məmurlar siyasi həyata, vərəsəlik məsələlərinə yersiz müdaxilə etmək imkanı qazandılar [13, s. 250-251].

H.R.Römerin fikrincə, görkəmli dövlət xadimi, sərkərdə və uzaqgörən siyasətçinin uğurları ilə yanaşı, şəhər qurucusunun, memarın və xeyriyyəçinin nailiyyətləri də nəzərə alınmalıdır. İşgüzarlıq, enerji, dərrakə və dövrü üçün təəccüblü tolerantlıq Abbasda intellektual maraqla birləşirdi, bunu İslam və xristian ilahiyyatçıları, Qərb diplomatları və tacirləri ilə söhbət etmək meyli, həssaslığı və sənət məsələlərində məlumatlılığı sübut etdi [27, s. 376].

I Şah Abbasın siyasi portreti üçün səciyyəvidir: böyük islahatçı və sərkərdə olan I Abbas inzibati, siyasi, hərbi və iqtisadi islahatlar apardı, dövlət quruluşunu kökündən dəyişdirdi, nizami ordu yaratdı, osmanlılar və özbəklərlə uğurlu müharibələr apardı, əvvəllər itirilmiş əraziləri geri aldı, əslində ona miras qalmış faktiki olaraq dağılmış Səfəvi dövlətini mahiyyətcə bərpa etdi, onu mərkəzləşdirilmiş mütləq monarxiyaya çevirdi.

Venesiyanın Suriyadakı səfiri Alessandro Malipiero 16 fevral 1596-cı ildə Venesiya senatına göndərdiyi hesabatda I Şah Abbas haqda yazırdı: “Bu hökmdar orta boylu, mütənasib və ahəngdar bədən quruluşuna malikdir, qaraşındır. Görünüşü nəcib, canlıdır və çox ağıllı gözləri var. Dostlaşan təbiəti var, çox insanpərvərdir və hər cür sinifdən insanlarla səmimi davranır; türklərin dəbdəbəli vərdişlərindən uzaqdır. Əsgərlərlə xüsusilə səxavətli olur, onları böyük mükafatlarla cəlb edir, bu da ona hər tərəfdən dəstəkçi yığmağa imkan verir. Amma ən əsası o, çox ədalətli zehni, çox iti və ağıllı ruhu, qətiyyətli və hərəkətlərində çevik olması ilə seçilir. Onun beynində böyük planlar var və İran (Səfəvi – red.) dövlətinin əvvəlki şöhrət və şərəfini geri qaytarmağı qarşıya məqsəd qoyub. Onun nəcib xüsusiyyətlərindən əksik olan yeganə şey onun səxavətli ruhuna uyğun qüvvələrdir” [39, s. 42].

I Şah Abbasın sarayında olmuş avropalı səyyahlar onun xarici görkəmi, xarakteri və şəxsiyyəti ilə bağlı mühüm məlumatlar verirlər. 1603-cü ildə İsfahanda I Şah Abbası görmüş ingilis Con Kartrayt onu belə təsvir etmişdir: “Bu gənc şah həm fiziki, həm də əqli cəhətdən mütləq mükəmməllik nümunəsidir. O, orta boylu, çox ləyaqətli sifətli, iti, nüfuzlu gözə sahib bir insandır. O, qaraşındır və uzun bığlıdır. O, saqqalını qırxır və görünüşü onun döyüşçü ruhunu və sərt təbiətini əks etdirir. Əslində ilk qarşılaşmada insan onun simasında qəddarlıq və zorakılıqdan başqa bir şey qatmadıqlarını zənn edər, əslində isə o qədər təvazökar və mərhəmətli bir xasiyyətə sahibdir ki, onu rahatlıqla görüb danışmaq olar. Münasibəti belədir ki, saray ağsaqqalları və sərkərdələri arasında yemək süfrəsi arxasında sərbəst oturur, saray əyanları və ağsaqqalları və xarici dövlətlərin elçiləri ilə ova çıxmaqdan və şahin uçurmaqdan həzz alır” [26, s. 75; 34, s. 736].

İtalyan səyyahı Della Valle Əşrəf şəhərində şahı ilk dəfə gördüyündə onu “qartal burunlu,

uzun bığlı, saqqalsız, qara qaşlı gənc" kimi təsvir etmişdi. O, orta boylu, yaşıl və təsirli gözlərə, qısa alına, incə çənəyə malik olmuşdur. Bir qayda olaraq sadə geyinər, yaşıl, qırmızı və qara rəngə üstünlük verərdi. Zinət şeylərindən istifadə etməzdi. Yalnız qılıncının qəbzəsi qızıldan idi [10, s. 278]. Della Valle yazır ki, "I Şah Abbas sadəcə bir hökmdar deyil, eyni zamanda bir ata, bir müəllim və xalqının xilaskarıdır. Onlara torpaq, sürü hədiyyə etməkdən, ehtiyaclarını ödəmək məqsədilə pul paylamaqdan çəkinməzdi" [29, s. 51; 10, s. 282]. Della Valle yazır ki, I Abbasın "qırx doqquz yaşında da saçları, qaşları və bığları qara idi, bir çox yürüşlər və müharibələr nəticəsində bənizi qaralsa da, sifətinin gözəlliyi çirkinliyindən üstün idi və ümumiyyətlə təntənəli, maraqlı və nəcib bir üzə sahib idi. Əlləri kəndli əlləri kimi qısa, qalın və qara idi, dövrün adət-ənənəsi ilə onlara xına vururdu" [37, s. 319-320; 13, s. 125].

İsgəndər bəy Münşi I Şah Abbas haqqında yazır: "... O, son dərəcə hiddətli təbiət, odlu-alovlu xasiyyət, qüvvət, əzəmət, şövkət, cah-cəlal və padşahlıqla yanaşı, özündə olduqca mülayimliyi, yumşaqlığı, dərviş xarakterini və sadəliyi cəmləşdirmişdir. O, mülayim və həlim olduğu vaxtlarda saray adamlarına, nədimlərə, mülazimlərə və başqalarına o qədər təvazökar və məxsusanə tərzdə yaxınlıq göstərər və qaynayıb-qarışar ki, sanki, onlarla dost və qardaşdır. Lakin digər əhvalda olanda... onun mübarək alnında elə qəzəb əlamətləri parlayır ki, onunla həmsöhbət, yoldaş və həmdəm olmuş və ondan dostcasına, qardaşcasına və təvazökarcasına rəftar görmüş həmin adamların həddi və ixtiyarı olmur ki, azacıq cəsarət, cürət və ədəbsizlik kimi anlaşıla bilən bir nisbətsiz söz dilə gətirə bilsinlər" [3, s. 712-713]. İsgəndər bəy Münşi I Şah Abbasın dürüstlüyünü və verdiyi vədlərə əməl etmək, ədaləti bərqərar etmək və qərəzsiz şəkildə cəzalandırmaq öhdəliyini qeyd edir. O, həm də şahın həmsöhbətlərini və köməkçilərini seçməkdə, məhkəmə, mülki idarə və orduya uyğun şəxsləri işə götürməkdə şəxsiyyətlərarası bacarıqlarını, kəskin intuisiyasını və emosional zəkasını yüksək qiymətləndirir.

İlkin qaynaqların təsdiq etdiyi kimi, I Abbas ona miras qalan xaos içindəki dövləti nizami dövlətə çevirə bilmək üçün daha qətiyyətli və mərhəmətsiz olmalı idi. Onun şiddətli cəzaları haqqında xəbərlər tabeliyində olanlara zülm edənlərə güclü təsir göstərirdi və onun əmrlərinin təxirə salınmadan yerinə yetirilməsini təmin edirdi. Əgər ataya öz oğlunu öldürmək əmr edilsəydi və ata bunu həyata keçirməkdə ləngisəydi bu dəfə oğluna atasını öldürmək əmr ediləcəkdi. Hər ikisi də öz növbəsində əmri həyata keçirməkdə ləngisəydi və ya tərəddüd etsəydi bu dəfə bir başqası onların ikisini də öldürmək üçün göndəriləcəkdi. Məhz bu səbəbdən onun əmrinin nüfuzu ali mərtəbəyə çatıbdır. Heç bir kimsənin cəsarəti yoxdur ki, onun qəzavü-qədər kimi cərəyan edən fərmanından bir an belə yayına bilsin [3, s. 709-710]. 1601-ci ildə Polşa kralı III Sigizmundun şəxsi taciri və elçisi kimi Səfəvi sarayına göndərdiyi Səfər Muratoviçin gündəliyində verdiyi məlumat bu baxımdan əhəmiyyətlidir. Səfər Muratoviçin qeydlərindən aydın olur ki, I Şah Abbas 1599-cu ildə Qərbi Avropa ölkələrinə yola saldığı "böyük elçilik" heyəti Polşa sarayına getməmiş, şahın məktubu və hədiyyələri ünvana çatdırılmamışdır. S.Muratoviç Səfəvi şahı ilə görüşü zamanı "Böyük elçilik" heyəti ilə eyni vaxtda Moskvaya çatan Pirqulu bəyin orada baş verən hadisələrlə bağlı şaha düzgün məlumat vermədiyi ortaya çıxdığına görə, şahın əmri ilə Pirqulu bəyin dili kəsilmiş, gözləri çıxarılmışdır [bax: 7, s. 113-116].

I Şah Abbasın yaxşı xüsusiyyətlərindən biri də "sədaqətlə bəzənmiş bütün mülazimlərə münasibətdə şəfqət və mərhəmət göstərməsi, halallıq və doğruluq tərzinə malik xidmətkarın və fədakarların hüquqlarını gözləməsi və onların könlünü xoş tutub hörmət bəsləməsidir" [3, s. 713]. I Abbas həm öz səltənətinin vəziyyəti, həm də xarici ölkələr haqqında tam məlumatlı idi. O, mükəmməl kəşfiyyat sisteminə sahib idi. O, həm müsəlman, həm də qeyri-müsəlman ölkələrinin hökmdarları, ordularının sayı və tərkibi, nəqliyyat yolları və onların ümumi vəziyyəti haqqında mühüm məlumata malik idi. I Abbas həmçinin dünyanın əksər hökmdarları ilə diplomatik əlaqələr yaratmışdı, əksər Avropa ölkələri, Moskva dövləti və Moğol imperiyası ilə dostluq münasibətində idi. Xarici səfirlər və elçilər mütəmadi olaraq onun sarayında olurdu və onun diplomatiyasının nailiyyətləri sələflərininkindən qat-qat üstün idi [3, s. 715].

I Abbasın fiziki xüsusiyyətlərinin ən yaxşı təsvirini C.Malkolm vermişdir: "Abbasın xoş

üzü və yuxarı qalxmış burnu var idi. Həyəcanlı və dəlici baxışları ilə ətrafa baxırdı. Onun saqqalı yox idi, amma uzun tüklü bığları var idi, onun boyunun qısa olduğunu söyləmək olar, lakin o, nadir dərəcədə dözümlü və çevik insan idi. Bütün həyatı boyu yorğunluq bilməməsi və sevimli ov etməyə çox can atması ilə tanınırdı" [28, s. 565; 13, s. 111].

I Şah Abbas alimləri, şairləri himayə edərək onları qorumağa çalışırdı. O, özü də şeirlər yazırdı. O, bu müsbət keyfiyyətləri ilə yanaşı, iki oğlunu kor etdirməkdən və bir oğlunu da öldürməkdən çəkinməmiş hökmdardır. Məhz buna görə də o, hakimiyyətinin sonlarına doğru son dərəcə kədərli və hüznlü bir həyat yaşamışdır [10, s. 281].

Görkəmli Səfəvi hökmdarı 1629-cu il yanvarın 19-da Fərahabadda vəfat etmiş və Kaşanda dəfn olunmuşdur.

***Nəticə***

Səfəvi dövlətçilik tarixinin çox mühüm bir dövrünü heç şübhəsiz ki, I Şah Abbasın hakimiyyəti dövrü təşkil edir. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində dərin siyasi böhran içərisində olan dövlətin böhrandan çıxarılması və onun əvvəlki qüdrətinin özünə qaytarılması I Abbasın adı və fəaliyyəti ilə bağlıdır. Bu baxımdan I Şah Abbasın hakimiyyət tarixinin araşdırılması və öyrənilməsi Səfəvi dövlətinin bütün tarixinin yaradılması baxımından elmi-tarixi əhəmiyyət kəsb edir.

Buna görədir ki, I Şah Abbas mövzusu uzun illərdir ki, müxtəlif dilli tarixçilər nəslinin əsas maraq dairəsindədir. I Şah Abbas o qədər böyük maraq doğuran tarixi bir şəxsiyyətdir ki, Səfəvilər sülaləsi ilə bağlı ümumi araşdırmalarda belə, əsərin böyük bir hissəsi ona həsr olunur. Bununla belə, son iyirmi ildə I Şah Abbas hakimiyyətinin dünyanın müəyyən bölgələri ilə diplomatik münasibətlərdən tutmuş, dini və fəlsəfi hərəkatlara qədər hər şeyi əhatə edən saysız-hesabsız elmi əsərlər yazılmışdır.

I Abbas Səfəvi şahı olandan bütün həyatı boyu Səfəvi dövlətini dünya səhnəsinə çıxarmağa çalışdı. O, hakimiyyətdə olarkən buna nail olmaq üçün hər vasitədən istifadə etdi və bu işdə çox uğurlar qazandı.

Şah Abbasın qızılbaşların hakimiyyətini cilovlamaq yeni tipli nizami ordu yaratmağa ciddi səy göstərdi və bu məqsədini uğurla gerçəkləşdirə bildi. Yeni tipli ordunun yaradılması mərhələli proses olduğundan şah bu ordu tam hazır olmadan müxalif yönümlü qızılbaş əmirlərinin təhlükəsi ilə üz-üzə qalmalı oldu. Lakin I Abbas heç düşünmədən qətiyyətli hərəkətlərlə hakimiyyətinə qarşı çıxan qızılbaş əmirlərini zərəsizləşdirə bildi, mərkəzi hakimiyyəti möhkəmləndirərək gözlənilən təhlükəni cilovlaya bildi. Dərin təfəkkürə, yüksək idraka və mükəmməl biliyə sahib olan I Abbas baş verə biləcək prosesləri nəzarət altında saxlamaq üçün qətiyyət nümayiş etdirərək onu taxta çıxaran Ustaclı Mürşidqulu xanı öldürmək üçün suiqəsd hazırlayan bir qrup qızılbaş əmirini edam etdirdi. Daha sonra Mürşidqulu xanı da edam etdirməkdən çəkinmədi.

İlkin qaynaqların I Şah Abbasın siyasi portreti ilə bağlı verdiyi məlumatları ümumiləşdirsək aşağıdakı səciyyəvi cəhətləri üzə çıxarmış olarıq: böyük islahatçı və sərkərdə olan I Abbas inzibati, siyasi, hərbi və iqtisadi sahədə islahatlar həyata keçirdi; dövlət quruluşunu əsaslı şəkildə dəyişdirdi; nizami ordu yaratdı, osmanlılar və özbəklərlə uğurlu müharibələr apararaq itirilmiş əraziləri geri aldı; ona miras qalmış faktiki olaraq dağılmış vəziyyətdə olan Səfəvi dövlətini mahiyyətcə bərpa etdi və onu qüdrətli mərkəzləşdirilmiş dövlətə çevirdi. Bu nailiyyətlərin qazanılması görkəmli dövlət xadimi, sərkərdə və uzaqgörən siyasətçi I Abbasın dövlətçilik zəkası və təşkilatçılıq qabiliyyətinə borclu idi.

## Ədəbiyyat siyahısı

1. *Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı:* Azərbaycan SSR EA-nın nəşriyyatı, *1951.*
2. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk-qızılbaş tayfalarının rolu. Bakı: Avropa, 2015.
3. Münşi İsgəndər bəy. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi), Fars dilindən tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev, tarix elmləri namizədi Namiq Musalı, Təhsil, Bakı: 2009.
4. Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi, I Kitab, (Fars dilindən çe-

virən Şahin Fərzəliyev t.e.d., prof.). Şərq-Qərb, Bakı 2010..
5. Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi, II Kitab, fars dilindən çevirən Şahin Fərzəliyev, t.e.d., prof., Bakı: Şərq-Qərb, 2014.
6. Nəcəfli T.H. Səfəvi-Osmanlı münasibətləri, Bakı: Turxan NPB, 2014.
7. Nəcəfli T.H. XVII əsrin I yarısı Səfəvi-Polşa əlaqələri tarixindən, AMEA Sosial Elmlər, 2022, №1, s. 112-126.
8. Nəcəfli T.H., Hüseyn F.A. I Şah Abbas dövründə Səfəvi dövlətinin Böyük Moskva knyazlığı ilə əlaqələri, AMEA Sosial elmlər, Bakı, 2023, №2, s. 98-114.
9. Süleymanov M.S. Səfəvilər VII. I Şah Abbas. Bakı: Maarif, 2023.
10. Süleymanov M.S. Səfəvilər VIII. I Şah Abbas. Bakı: Maarif, 2023
11. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, (1587-1629), Berikan Yayınevi, Ankara: 2013.
12. Khalily R. Azerbaycan Masallarında Şah Abbas'ın Tebdil-i Kıyafetleri, ACTA TURCICA, Yıl IV, Sayı 2-1, Temmuz 2012, s. 118-139.
13. Quinn Sh. Şah Abbas İranı Yeniden Şekillendiren Hükümdar. Türkçesi Zeliha Yılmaz. VakıfBank Kültür Yayınları, İstanbul: 2020.
14. Savory R. İran Safeviler Devrinde, çevirmen Özgür Kolçak, Bilge Kültür Sanat, İstanbul: 2022.
15. Sümer F. Safevi tarihi ile ilgili incelemeler: I. ve II. Abbas devirleri, Türk Dünyası Araştırmaları, sayı 69, 1990, s. 10-32.
16. Sümer F. "Abbas I Safevi hökmdarı (1587-1629)", İslam Ansikloperisi, TDV, 1 Cilt, İstanbul: 1988, s. 17-19.
17. Tavernier J.B. Tavernier Seyahatnamesi, Çeviren Teoman Tunçdoğan. Kitab Yayınevi, İstanbul, 2006.
18. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. (по русским архивам), Изд. «Наука». Москва, 1976.
19. Гусейн Ф.А. К вопросу об обещании шаха Аббаса I уступить Московсуому государству Дербент, Баку и Шемаху. Вопросы истории, 2010, № 9, с. 113-124.
20. Магилина И.В. Россия и проект антиосманской лиги в конце XVI- начале XVII вв. (1604-1612 гг.). Волгоград: 2016.
21. Олеарий А. Подробное описание путешествия Голштинского посольства в Москвию и Персию в 1633, 1636 и 1639 годах. Пер. с немец. П.Барсова, Москва: Университетская типография, 1870.
22. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Изданы под редакцией Н.И.Веселовского, том I. Спб.-Петербург, 1890.
23. Рахмани А.А. Азербайджан в конце XVI и в – XVII века. Баку: Элм, 1981.
24. Шорохов А.В., Слесарев А.Т. Фирман персидского шаха Аббаса I астраханскому воеводе из фондов Российского государственного архива древних актов. // Источниковедение, Клио № 4(148), 2019, с. 28-33.
25. Axworthy M. Empire of the Mind: A History of Iran. London: UK: C.Hurst and Co, 2007.
26. Babaie S., Babayan K., Baghdiantz-McCabe I., Farhad M. Slaves of the shah. New Elites of Safavid Iran. I.B.Tauris Co Ltd, London- New York, 2004.
27. Blow D. Shah Abbas: The Ruthless King Who Became an Iranian Legend. I.B. Tauris, 2009.
28. Cambridge History of Iran, Volume 6. The Timurid and Safavid Periods, Edited by Peter Jackson, Lawrence Lockhart. London: Cambridge University Press, 1986.
29. Malcolm Sir John. History of Persia, From the Most Early Period to the Present Time, Vol. I. London: Printed for *John* Murray and Longman & Co, 1815.
30. Pinkerton John. A generak collection of the best and most interesting Voyades and travels. Vol. 9. London: 1811.
31. Savory M.R. Very dull and arduous reading: A reappraisal of the history of Shah Abbas the great by Iskandar beg Munshi, Studies on the history of Safawid

Iran, Variorum reprints, London: 1987, p.19-37.
32. Syros V. "The Safavid Machiavelli: Shāh ʿAbbās I and the "Great Man" Theory Revisited", *Comparative Political Theory* 1, Brill Leiden, 2021, p.57-79.
33. Tavernier J.B. The Six Voyages of John Baptista Tavernier, Baron of Aubonne, through Turky, into Persia and the East Indies, for the Space of Forty Years. Book V. London, Printed by William Godbid for Robert Littlebury and Moses Pitt, 1677.
34. The Relations of the Polish Lithuanian Commonwealth with Safavid Iran and the Catholicosate of Etchmiadzin. Varshava: 2017.
35. Fəlsəfi N. Zindeqi-i Şah Abbas-ı əvvəl, c. 1. Danişgah-ı Tehran, Tehran: 1332.
36. Kempfer E. Dər dərbare şahənşahe İran. Tərcome-ye Keykavus Cahandari. Tehran: 1350.
37. Qumi Qazi Əhməd. Xülasət ət-təvarix, c. 2. Bekuşeşe İhsan İşraqi, İntişarat-ı Danişgah-ı Tehran, Tehran: 1383.
38. Pyetro della Valle. Səfərname-ye Pyetro della Valle. Tərcome-ye əz mətne əsli-ye italiyayi doktor Şücaaddin Şəfa, Tehran: Elmi-Fərhəngi,1370.
39. Sərname-ye don Qarsiya Silva Fiqueroa. Tərcome-ye Qulamırza Səmia, Tehran: Çapxaneye Kətibe, 1363.
40. Berchet G. Relazioni dei consolati di Alessandria e di Soria. Torino: Tipografia G.B.Paravia e Comp., 1865.

## Резюме

**Тофиг Наджафли**

## Политический портрет шаха Аббаса Сефеви I

Представленная статья пролила свет на важные моменты политической жизни шаха Аббаса I, одного из самых могущественных правителей династии Сефевидов, открывшего новую страницу в истории государственности азербайджанского народа. Жизнь и политическая деятельность Аббаса I, его превращение в символ праведного шаха подробно освещены в первоисточниках. В годы правления Аббаса I на основе первоисточников и научной литературы была исследована работа по выходу Сефевидского государства из политического кризиса, в котором оно пало, укреплению центральной власти и возвращению государству былого величия. Пришедший к власти Аббас I в период обострения борьбы за власть между различными кызылбашскими племенами, обладавшими авторитетом и властью, требовал от него большой решимости и смелости нейтрализовать эти силы, укрепить центральную власть.

Как видный государственный деятель и полководец своего времени, Аббас I, успешно выполнив поставленные перед ним задачи, вошел в историю как покровитель науки и искусства, прославившись мудрым государственным управлением и строительными работами. В процессе исследования были выяснены характерные черты политического портрета Аббаса I.

Шах Аббас I, известный полководец и государственный деятель своего времени, остался в памяти народа своими реформами, а также обширными строительными работами, которые он проводил, наряду с успешными военными действиями. Обладая сильной волей в первоисточниках, шах Аббас I был самым праведным, умным, способным правителем своего времени и умелым политиком.

***Ключевые слова:*** *Шах Аббас I, государство Сефевидов Азербайджана, племена кызылбашей.*

**Summary**

**Tofig Najafli**

**Political Portrait of Shah Abbas Safavi I**

The article sheds light on important moments in the political life of Shah Abbas I, one of the most powerful rulers of the Safavid dynasty, who opened a new page in the history of the statehood of the Azerbaijani people. The life and political activities of Abbas I, his transformation into a symbol of the righteous Shah are covered in detail in primary sources. During the reign of Abbas I, based on primary sources and scientific literature, the work on the way out of the Safavid state from the political crisis in which it fell, strengthening the central government and returning the state to its former greatness was studied. Abbas I, who came to power during the period of aggravation of the power struggle between various Qizilbash tribes with authority and power, demanded from him great determination and courage to neutralize these forces and strengthen the central government.

As a prominent statesman and commander of his time, Abbas I, having successfully completed the tasks assigned to him, went down in history as a patron of science and art, becoming famous for wise public administration and construction works. In the course of the research, the characteristic features of the political portrait of Abbas I were clarified.

Shah Abbas I, a famous commander and statesman of his time, remained in the memory of the people for his reforms, as well as the extensive construction work that he carried out, along with successful military operations. Possessing a strong will in the primary sources, Shah Abbas I was the most righteous, intelligent, capable ruler of his time and a skillful politician.

***Keywords:*** *Shah Abbas I, Safavid state of Azerbaijan, Qizilbash tribes.*